

***Bir aydan da az müddət sonra ölkəmiz dünyada böyük əhəmiyyət daşıyan bir tədbirə - BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına (COP29) ev sahibliyi edəcək. Bu tədbir təkcə ətraf mühit mövzularını müzakirə etməklə kifayətlənməyəcək, eyni zamanda Azərbaycanın beynəlxalq nüfuzunun daha da yüksəlməsinə, onun qlobal məsələlərdəki mövqeyinin güclənməsinə mühüm töhfə verəcək. Azərbaycan beynəlxalq səviyyədə üzləşdiyi qarayaxma kampaniyaları və siyasi təzyiqlərlə üz-üzə qalsa da COP29 ölkəmizin həqiqətlərini dünya ictimaiyyətinə birbaşa çatdırmaq üçün yeni bir platforma olacaq.***



# COP29 dünya liderlərinin diqqət mərkəzində

Beynəlxalq arenada sistemli şəkildə aparılan qərəzli kampaniyaların qarşısının alınmasında bu konfransın rolu əvəzsiz olacaq. Bu tədbir vasitəsilə ölkəmizin yalnız neft və qaz sektoru ilə tanınmadığını, eyni zamanda "yaşıl enerji"yə yönəlmiş strateji layihələr həyata keçirdiyini bütün dünyaya göstərmək imkanı əldə edəcək. Dünyanın müxtəlif ölkələrindən liderlərin, nüfuzlu şirkət rəhbərlərinin iştirakı ilə baş tutacaq bu mötəbər tədbir ölkəmizin "yaşıl enerji" sahəsində gördüyü işləri qlobal ictimaiyyətə təqdim edəcək. "Yaşıl enerji" istehsalı, bu enerji növlərinin dünya bazarlarına çıxarılması artıq Azərbaycanın milli prioritetləridir. Rəsmi Bakı artıq bir çox beynəlxalq tədbirlərin müvəffəqiyyətlə həyata keçirildiyi qlobal mərkəzə çevrilib. COP29 isə bu uğurlar silsiləsinin davamı olacaq. Bu tədbir Azərbaycanın dünyada məsuliyyətli, ətraf mühitə duyarlı, innovativ bir dövlət olduğunu bir daha sübut edəcək və Bakı beynəlxalq tədbirlərin mükəmməl ev sahibliyi təcrübəsini bütün dünyaya göstərəcək. COP29 Azərbaycanın gələcəyi üçün "yaşıl iqtisadiyyat"ın təməlini atmaqda və bu sahədə beynəlxalq liderlərdən biri olmaq yolunda mühüm addım olacaq. Bu tədbir təkcə ekoloji məsələlərin müzakirəsi ilə kifayətlənməyəcək, həm də beynəlxalq siyasi və iqtisadi sferada əhəmiyyətli qərarlar qəbul ediləcək Azərbaycanın dünya səhnəsində iqlim liderliyinə iddiasını bir daha gücləndirəcək və ölkəmizin qlobal ekoloji siyasətdəki rolunu yenidən təsdiqləyəcək. COP29-un baş danışıqçısı Yalçın Rəfiyev Bakıda keçirilən Pre-COP29 görüşündə açıqlama verərək sessiya çərçivəsində 60-a yaxın qərarın qəbul ediləcəyini bildirib. Xüsusilə diqqətçəkən məsələlərdən biri iqlim maliyyəsinin və karbon bazarlarının formalaşması olacaq. Bu iki istiqamət iqlim dəyişmələri ilə mübarizədə dönüş nöqtəsi hesab olunur və onların uğurla həyata keçirilməsi qlobal miqyasda tarixi nailiyyət kimi qiymətləndiriləcək. Azərbaycan üçün bu qərarların qəbul edilməsi, yalnız ekoloji problemlərin həllinə deyil, həm də ölkəmizin beynəlxalq səviyyədə daha güclü və məsuliyyətli tərəfdaş kimi mövqeyini möhkəmləndirmək üçün mühüm bir addım olacaq. Azərbaycanın COP29 sədrliyi çərçivəsində 14 təşəbbüs irəli sürməsi ölkəmizin iqlim dəyişmələrinə qarşı mübarizədə fəal mövqe tutduğunu göstərir. Bu təşəbbüslər arasında iqlim dəyişmələri ilə mübarizənin maliyyələşdirilməsi Fondu və Qlobal Atəşkəs Çağırışı kimi innovativ fikirlər xüsusilə diqqət çəkir. Qlobal Atəşkəs Çağırışı hərbi əməliyyatların iqlimə vurduğu zərəri və atmosferə atılan tullantıları azaltmaq məqsədilə irəli sürülüb. Bu, ekoloji və siyasi sabitlik arasında əlaqənin gücləndirilməsi üçün mühüm bir addımdır və 127 ölkədən 1100-dən çox qeyri-hökumət təşkilatı, liderlər və tanınmış şəxsiyyətlər tərəfindən dəstəklənməsi onun beynəlxalq aləmdə necə ciddi bir əhəmiyyətə malik olduğunu göstərir. COP29 çərçivəsində Azərbaycanın sədrliyi ilə imzalanacaq sənədlər və Bakı bəyannamələri də tədbirin tarixi əhəmiyyətini daha da artıracaq. 8 fərqli bəyannamə və öhdəliyin imzalanması Bakının qlobal iqlim mübarizəsindəki mərkəzi rolunu gücləndirəcək. Azərbaycanın bu bəyannamələrlə həm regional, həm də beynəlxalq səviyyədə nüfuzunu artırmaq, ekoloji təşəbbüslərdə lider kimi çıxış etmək istiqamətində mühüm addımlar atır. Bakının adını daşıyan bu sənədlər Azərbaycanın iqlim dəyişmələrinə qarşı qlobal mübarizədə məsuliyyətli oyunçu olduğunu təsdiqləyəcək, ölkəmizi möhtəşəm səhnədə daha möhkəm bir mövqeyə gətirəcək.

Tədbir çərçivəsində Azərbaycana müxtəlif ölkələrin liderləri və tanınmış şəxsiyyətlərin gəlməsini bəyan etməsi tədbirin əhəmiyyətini bir daha təsdiqləyir. Braziliya Prezidenti Luis İnasiu Lula da Silva paytaxtımızda keçiriləcək COP29-a qatılmaq üçün Bakıya gələcək. Bu səfər yalnız Braziliya və Azərbaycan arasındakı ikitərəfli münasibətlərə yeni bir dinamika qatmaqla qalmayacaq, həm də qlobal iqlim siyasətində Braziliyanın artan rolunu bir daha ön plana çıxaracaq. Braziliya Xarici İşlər Nazirliyinin iqlim, enerji və ətraf mühit üzrə katibi Andre Korrea du Laqunun verdiyi məlumata görə, COP29 Braziliya üçün xüsusi əhəmiyyət daşıyır. Bunun əsas səbəblərindən biri isə Braziliyanın qarşıdan gələn COP30-a ev sahibliyi etməsidir. Bu müzakirələr Braziliyanın özünün Milli Səviyyədə Müəyyən Edilmiş Töhfələri (NDC's) çərçivəsindəki hədəfləri daha da səmərəli şəkildə icra etməsi üçün əhəmiyyətli addımlar atılmasına zəmin yarada bilər. COP29 yalnız qlobal iqlim müzakirələrinin mərkəzində olmaqla qalmayacaq, həm də gələcəkdə Braziliyada keçiriləcək COP30-un əsas mövzularının hazırlanmasında önəmli rol oynayacaq. Braziliya dünya səviyyəsində Amazon meşələrinin qorunması və qlobal iqlim dəyişmələrinə qarşı mübarizədə lider ölkələrdən biri kimi tanınır. Prezident Lula da Silvanın iqlim dəyişmələri ilə mübarizəyə verdiyi böyük önəm və ölkəsinin bu sahədə beynəlxalq öhdəlikləri yerinə yetirməsi COP29-un Braziliya üçün xüsusi bir mərhələ olmasını təmin edəcək. Bu baxımdan, Bakıda keçiriləcək tədbir Braziliya üçün təkcə diplomatik anlamda deyil, həm də qlobal iqlim mübarizəsində mühüm mərhələ hesab edilə bilər. Prezident Lula da Silvanın tədbirdə iştirakı, həm iqlim dəyişmələrinə qarşı mübarizədə qlobal həmrəyliyin gücləndirilməsi, həm də Braziliyanın bu prosesdə iddiasını daha da möhkəmləndirəcək. COP29 dünya liderlərinin bir araya gəldiyi, iqlim məsələlərinin təhlil edildiyi bir platforma olmaqla yanaşı, ölkələr arasında iqlim diplomatiyasını da gücləndirəcək. Qlobal iqlim böhranının həlli yolunda bu kimi beynəlxalq tədbirlər, ölkələrin iqlim öhdəliklərini daha ciddi şəkildə yerinə yetirməsi və qlobal istiləşmənin qarşısını almaq üçün vacib addımlar atmasını tələb edir. COP29 isə bu prosesdə əsas nöqtə olacaq.

Braziliya ilə yanaşı, İtaliya rəsmisi də tədbirdə iştirak edəcək. Belə ki, sessiyada İtaliya nümayəndə heyətinə Baş nazir Corcia Meloni rəhbərlik edəcək. Bu məlumatı Pre-COP29 çərçivəsində çıxış edən İtaliyanın iqlim dəyişmələri üzrə xüsusi nümayəndəsi Françesko Korvaro verib. O bildirib ki, Meloninin rəhbərlik etdiyi nümayəndə heyətində ölkənin ətraf mühit naziri Cilberto Piketto Fratin də yer alacaq. İtaliyanın bu tədbirdə yüksək səviyyədə təmsil olunması ölkənin iqlim dəyişmələri ilə mübarizəyə nə qədər ciddi yanaşdığını göstərir. Xüsusilə Avropa Birliyində mühüm rol oynayan İtaliya qlobal səviyyədə də ekoloji problemlərin həllində aktiv mövqe tutmaqda maraqlıdır. Corcia Meloninin Bakıya gəlməsi isə həm Azərbaycanla ikitərəfli münasibətlərin gücləndirilməsinə, həm də Avropanın enerji təhlükəsizliyində ölkəmizin oynadığı vacib rola diqqətin artırılmasına xidmət edəcək. İtaliyanın COP29-da iştirakı bu ölkənin qlobal iqlim dəyişmələri müzakirələrində önəmli tərəfdaş olduğunu bir daha göstərir. Son illərdə İtaliya iqlim dəyişmələrinə qarşı mübarizədə yeni təşəbbüslər irəli sürür və bu məsələdə beynəlxalq əməkdaşlığa xüsusi əhəmiyyət verir. Baş nazir Corcia Meloninin konfransda iştirakı da bu yanaşmanın davamı kimi qəbul edilə bilər. Bununla yanaşı, Meloni hökumətinin iqlim dəyişmələri ilə mübarizəyə verdiyi prioritet mövzunun beynəlxalq gündəlikdə daha yüksək səviyyəyə qaldırılmasına səbəb olacaq. Ölkə son illərdə "yaşıl enerji" texnologiyalarına böyük sərmayələr yatırır, ekoloji qanunvericiliyi sərtləşdirir və iqlim dəyişmələri ilə bağlı beynəlxalq razılaşmalara sadiqliyini göstərir. Dünyanın müxtəlif guşələrindən gələn liderlərin iştirakı ilə COP29 həm ekoloji məsələlərin həlli, həm də yeni geosiyasi və iqtisadi əlaqələrin formalaşması baxımından xüsusi əhəmiyyət daşıyır. COP29 həm də qlobal liderlərin ekoloji sahədə yeni təşəbbüslər irəli sürməsi və gələcək nəsillərə daha təhlükəsiz, "yaşıl dünya" qurmaq üçün vacib qərarlar qəbul etməsi baxımından həlledici bir mərhələ olacaq.

**Musa BAĞIRLI,**
**"Respublika".**